

# Mən gərək qaytaram məni özümə

> Kəlbəcərin işğalından bir igidin ömrü qədər vaxt keçib. 22 il ərzində çox şey dəyişib. Dünyaya yeni nəsillər gəlib. Doğma torpağa qovuşmaq həsrəti ilə çırpınan nə qədər vətənpərvər oğlumuz, işıqlı ziyalımız, müdrik insanlarımız həyata erkən "əlvida!" deyib...

# Bir gün Kəlbəcərə qayıtmaq üçün...

Amma dəyişməyən məqamlar da az deyil. Nə yazıq ki, dünyanın beynəlxalq gücləri, hegemon, aparıcı dövlətləri hələ də ikili oyun oynayır, hadisələrə fərqli mövqedən yanaşır, olanlara obyektiv qiymət vermir, təcavüzkarla təcavüzə uğrayanı eyni sırada tutur, bəzən hətta məqsədli şəkildə birincini daha haqlı sayır, işğal nəticəsində dinc əhaliyə vəhşicəsinə divan tutulmasına, yerli əhalinin min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin halına salınmasına göz yumur...

Əlbəttə, bunu təsadüf kimi dəyərləndirmək olmaz. Möhtərəm Prezidentimizin təbirincə desək, "...həqiqət ondan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini çoxdan tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar torpaqlarımızı bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərir ki, biz hətta təkbaşına mübarizədə belə uğur qazana və milli maraqlarımızı müdafiə edə bilirik..."

Bütün bunları Kəlbəcərin timsalında da görmək mümkündür. Belə ki, 1936 kvadrat kilometrdən ibarət böyük bir əraziyə malik torpaqlarını tərk etməyə məcbur olan əhali hazırda Respublikanın 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində qaçqınlıq şəraitində yaşayır. Təqdirəlayiq haldır ki, onların sosial şəraitini yaxşılaşdırmaq üçün çox işlər görülmüş, müxtəlif layihələr həyata keçirilmlşdir.

Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar başqa həmvətənlərimiz kimi kəlbəcərlilərin həyatında da dönüş yaradacaq mühüm tədbirlər gerçəkləşdirilmişdir. Goranboy, Göygöl, Yevlax və Şəki rayonlarında fin tipli evlərdə, məktəblərdə və digər uyğunlaşdırılmış yerlərdə məskunlaşmış yüzlərlə ailə üçün hər cür şəraiti olan qəsəbələr salınmış, məktəb, uşaq bağçası, mədəniyyət evi, kitabxana və digər sosial obyektlər

*"Haçandır baş açmır bu çək-çevirdən,*
*Doyub xəbərlərdən, bezib efirdən...*
*Göz yaşı sellənib axır qəfildən,*
*Obası, oymağı düşür yadına-*
*Anam həsrət qalıb ana yurduna.*

*Vətəndə vətəni soruşur müdam,*
*Bu yerdə söz tapıb nə desin adam...*
*Mən də belə oğul, belə övladam,*
*Kiçik bir təsəllim çatmır dadına-*
*Anam həsrət qalıb ana yurduna.*

*Dağında gölləri ala Kəlbəcər,*
*Gözəlliyi başa bəla Kəlbəcər,*
*"Qüdrətdən səngərli" qala Kəlbəcər*
*İblis xəyanətin getdi badına,*
*Anam həsrət qalıb ana yurduna..."*

tikilmişdir.

Dövlətin bu qayğı və diqqəti, ölkə başçısının yeritdiyi müdrik siyasət təbii ki, adamlarda böyük ruh yüksəkliyi və qələbəyə sonsuz inam yaradır...

Bizdən fərqli olaraq nankor qonşularımız abadlıq və quruculuq işləri ilə deyil, xislətlərinə uyğun şəkildə uçurub-dağıtmaq, qarət edib yandırmaqla məşğuldur. Kəlbəcər rayonu ərazisində qalmış 13000-dək fərdi mənzil, 70806 ha meşə sahəsi indi də talan olmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılıb.



Gəncəsər monastırı

Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı, 200-dək mədəniyyət müəssisəsi-mədəniyyət evi, klub, musiqi məktəbi, kitabxana, muzey və s. Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb.

İşğal zonasında qalan , sənaye əhəmiyyətli ehtiyatları 125 tondan artıq olan Söyüdlü (Zod), Ağduzdağ və Tutxun qızıl yataqları; 1100 tonluq Ağyataq, Levçay, Çorbulaq , Qamışlı və Ağqaya civə yataqları; 10941 min kub metrlik və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı; 1312 min kub metrlik və kərpic istehsalına yararlı Keşdək gil yatağı; 4473 min kub metrlik və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı; 2,2 milyon kub metrlik üzlük daşı yatağı; 2540 min kub metrlik Çəpli qumçınqıl qarışığı yatağı; 1756 tonluq gözəl dekorativliyə malik 4 mərmər oniksi və 801 tonluq nefroid yataqları; 2337 tonluq obsidian (dəvə gözü) və 1067 min kub metrlik listvenit yataqlarında hansı vəhşiliklərin törədilməsi faktları zaman-zaman beynəlxalq təşkilatların diqqətinə çatdırılıb.

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik, gün ərzində ümumi istismar ehtiyyatı 3093 kub metr olan mineral su yataqları və s. haqqında da eyni sözləri söyləməliyik.

Hazırda işğal altında olan Sərsəng su anbarı da 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmişdir. Onun ümumi su tutumu 560 milyon kub metr, bəndinin hündürlüyü 125 metrdir. Tərtər çayının yığıldığı bu nəhəng su anbarının sağ və sol sahilindən çıxan magistral kanallar vasitəsilə Tərtər, Bərdə, Yevlax, Ağcabədi, Ağdam və Goranboy rayonlarının ümumilikdə 79000 hektar əkin sahəsi suvarılırdı.

Sərsəng su anbarı işğal altında olandan bəri ermənilər illik su sərfinin 85-90 faizini qəsdən, su lazım olmayan vaxtlarda, xüsusilə qış aylarında buraxırlar. Lazım olan vaxtlarda isə illik su normasının 10-15 faizini buraxırlar ki, bu da suyun səviyyəsinin aşağı düşməsinə və suvarmanın qeyri-mümkünlüyünə səbəb olur. Əkin sahələrinə xeyli ziyan dəyir, yaşıllıqlar susuzluqdan quruyaraq məhv olur, ciddi ekoloji gərginlik yaranır.

Kəlbəcər rayonunun Ala göllər, Zalxa gölü və s. kimi saf sulu gölləri var. Əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqlarına malikdir. Burada boy atan 4 mindən artıq müxtəlif növ bitkilərdən 200-ə qədəri dərman kimi işlədilirdi. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda alp və subalp çəmənlikləri geniş yer tutur. Dağ keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və s. bu yerlər üçün xarakterik fauna növləridir.

Dəyərli oxucularımızın diqqətinə çatdırdığımız əzəldən bizə düşmən kəsilən erməni vandallarının yalnız bir rayonun timsalında törətdikləri vəhşiliklərin qısa mənzərəsidir. Bütövlükdə, 1993-cü ilin qiymətlərinə görə Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53.340 nəfər qovulub, 511 dinc sakin öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb...

> Aşıq Qurban, Aşıq Avaz, Aşıq Şəmşir, Aşıq Qəmkeş kimi aqlı-sanlı sənətkarların, Bəhmən Vətənoğlu, Ənvər Rza, Məmməd Aslan, Adil Cəmil tək tanınmış şairlərin dünyaya göz açdıqları yurdun quzğun caynağından xilas edilməsi hamımızı düşündürür.

Dövlətimiz torpaqlarımızın sülh yolu ilə azad olunmasını istəyir və konkret fikrini beynəlxalq aləmə çoxdan bəyan edib. Əks təqdirdə, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin göstərişi və rəhbərliyi altında ayağa qalxacaq, yekdilliklə Vətəni düşmənlərdən azad edəcəyik.